# Xalqın iqtidara olan dərin inamı artmaqda davam edir

***Bu il yanvarın 13-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunan müşavirə keçirilib. Tədbirdəki çıxışlarda, xüsusilə dövlət başçısının giriş və yekun nitqlərində səslənən dəyərli fikir, tapşırıq və tövsiyələr ölkə ictimaiyyətində dərin maraq doğurub. Bu barədə söz düşəndə "Ailələrə sosial dəstək" İctimai Birliyinin rəhbəri Esmira Rəhimova dedi:***



– Müşavirənin materialları ilə rəsmi qəzetlərdə yaxından tanış olanda, gəldiyim əsas qənaət bu oldu ki, 2019-cu il Azərbaycan üçün həqiqətən uğurlu il olmuşdur. Çox sevindirici haldır ki, qarşıya qoyulan bütün vəzifələr vaxtında icra edilmiş, ölkənin dayanıqlı inkişafı təmin olunmuşdur.

Hesab edirəm ki, ölkəmizin parlaq uğurlarının əsasında, ilk növbədə xalqımızın öz sevimli lideri Prezident İlham Əliyevin müdrik daxili və xarici siyasətinə, səriştəli idarəçiliyinə olan dərin inam hissi dayanır.

Görünən və qürur doğuran budur ki, əvvəlki illərdə olduğu kimi, ötən il də Azərbaycan sabitlik şəraitində yaşamışdır. Məlumdur ki, 2019-cu ildə dünyanın müxtəlif yerlərində gərginlik artmışdır, qanlı toqquşmalar, müharibələr, kütləvi etiraz aksiyaları, polis zorakılığı, insan haqlarının kobudcasına pozulması, demokratik dəyərlərin tapdalanması müşahidə olunmuşdur.

Xoşbəxtlikdən, Azərbaycan sabitlik məkanı kimi inkişaf etmişdir. Ölkəmizdə sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Xalq tərəfindən hakimiyyətə göstərilən dəstək, həyata keçirilən siyasətə verilən yüksək qiymət, həm iqtidarı daha da ruhlandırır və eyni zamanda, ölkədə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir.

İnanıram ki, Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizdə aparılan kadr və struktur islahatları sayəsində Azərbaycan xalqı yaxın gələcəkdə daha parlaq uğurlar əldə edəcək.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.-2020.-17 yanvar.-S.3.